| | |
|---|---|
| Kamal Ağa Paşa oğlu Musaxanov |  |

Kamal Ağa Paşa oğlu Musaxanov 24 iyul 1956-ci ildə Bakı şəhərində anadan olub. 1973-1978-ci illərdə Azərbaycan İnşaat Mühəndisləri institutunda təhsil alıb.

1978-1981 "Bakıdövlətlayihə" institutunda memar, 1981-1984 Leninqrad, Sosnovıy Bor şəhəri XOM, memar-rəssam, 1984-1987 "Bakıdövlətlayihə" institutunda baş memar, 1987-1991 Kirov rayon İcraiyyə Komitəsinin layihə- smeta bürosunun direktoru işləyib.

1991-1994 Elmi-layihə kooperativi "АЭГ" baş mühəndis, 1995-2002 "İnşaat C" MMC-də baş mühəndis, 2002-2005 "Səbail mətbəə-1" ASC-də direktor, 2005-2016 "ARCON" MMC-də öncə direktor müavini, sonra baş memar, sonra isə baş mühəndis vəzifəsində çalışıb. 2016-cı ildən etibarən "AMİ Proyekt" Yaradıcı Memarlıq Layihə Birliyi MMC-də baş memar vəzifəsində işləyir.

Azərbaycanın Əməkdar memarı (2016), Azərbaycan Memarlar İttifaqı tərəfindən Çoxillik yaradıcılıqfəaliyyətinə görə Fəxri Fərmanla (2016, "Ustad Memar" sertifikatı (2017) ilə təltif olunub. 2019-cu ildən Beynəlxalq Memarlıq Akademiyasının Moskva bölməsinin professorudur.